



# Azərbaycan əsgərinin qalibiyyət, erməni işğalçılarının məğlubiyyət rəmzinə çevrilmiş məkan

**Bu gün gənclərin böyük həvəslə üz tutduqları ünvanlardan biri də Hərbi Qənimətlər Parkıdır. Ziyarətçilər 44 günlük Vətən müharibəsində düşmənin məhv edilmiş zirehli texnikalarına maraqla tamaşa edirlər. 27 sentyabr 2020-ci ildə ermənilər məhz bu texnikalar və silahlarla mövqelərimiz üzərinə hücuma keçmişdilər.**

Vətən müharibəsi başa çatandan sonra Prezident İlham Əliyevin sərəncamı ilə Bakı şəhərində Hərbi Qənimətlər Parkı yaradıldı. Parka Vətən müharibəsi zamanı hərbçilərimizin döyüş meydanlarında erməni qəsbkarlarının dəqiq atəş zərbələri ilə vurub sıradan çıxardıqları zirehli və zirehsiz texnikaları, silahları gətirildi. Bu texnikalar, silahlar muzey eksponatına çevrildi.

Parkı gəzdikcə maraqlı mənzərələrlə rastlaşdıq. Şərti səngərlər, yeraltı keçidlər, minalanmış sahə və başqa bölmələr düşmənin 30 ildə nə ilə məşğul olduğunu göstərirdi. Bir az qabağa gedəndən sonra qarşımıza ermənilərin dilindən düşməyən "Ohanyan səddi" çıxdı. Erməni işğalçıları xeyli xərc çəkərək bütün cəbhəboyu "Ohanyan səddi" yaratmışdılar. Bu sədd yerə bərkidilmiş bir neçə sıra üzüm dirəklərindən və bu dirəklərə qat-qat və yaxın-yaxın çəkilmiş tikanlı məftillərdən ibarət idi. Dirəklərin arasına isə yüzlərlə, minlərlə mina basdırılmışdı. Ermənilər bu səddi yaratmışdılar ki, Azərbaycan Ordusu işğalda qalmış rayonların ərazilərinə ayaq basa bilməsin. Amma Vətən müharibəsində ordumuzun zabit və əsgərləri bu səddi qısa müddətdə aşaraq düşmənin üzərinə əks-hücuma keçdilər və torpaqlarımızı işğaldan azad etdilər.

Ziyarətə gələnlər eksponatların yanında bir anlıq ayaq saxlayır, yanıb qaralmış texnikalara və silahlara tamaşa edirdilər. Azərbaycan əsgərinin zərbələri dəqiq olduğundan texnikalar bir göz qırpımında heyət üzvləri ilə birlikdə zərərsizləşdirilmişdi. Zirehli, zirehsiz texnikalar müxtəlif yerlərindən vurulmuşdu. Hərbçilərimiz düşmən tankının birini elə yerindən vurmuşdular ki, zirehli texnika üç hissəyə parçalanmışdı. Bu, hərbçilərimizin peşəkarlığından xəbər verirdi. Hərbi Qənimətlər Parkında erməni əsgərlərinin, onların səngərlərinin, kazarmalarının, qarovul otaqlarının, anbarlarının və başqa yerlərin maketləri də qoyulmuşdu.

Muzey eksponatı kimi baxılan bu silah və texnikalarla düşmən ordumuza qalib gəlmək, yeni ərazilərimizi işğal etmək istəyirdi. Amma igid, cəsur döyüşçülərimiz dəqiq atəş zərbələri ilə qəsbkarların döyüş texnikalarını, canlı qüvvəsini məhv etdilər, xalqımıza böyük qələbə sevinci yaşatdılar. Erməni qəsbkarlarının vurulmuş texnikalarına baxdıqca Azərbaycan əsgərinin gücü, qüdrəti, peşəkarlığı və qəhrəmanlığına heyrət etməmək mümkün deyil.

Birinci Qarabağ müharibəsində özlərinin "qələbə rəmzi" kimi Xankəndi-Şuşa yolunda qoyduqları tank da 19-20 sentyabrda Azərbaycan Ordusunun uğurla həyata keçirdiyi antiterror tədbirlərindən sonra Hərbi Qənimətlər Parkına gətirildi. 442 nömrəli bu tankı Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunov Şuşada vurmuşdu. İndi həmin tank düşmənin məğlubiyyətinin rəmzidir. Təkcə bu zirehli texnika deyil, Hərbi Qənimətlər Parkı özü bütövlükdə Azərbaycan əsgərinin qalibiyyət, erməni işğalçılarının məğlubiyyət rəmzinə çevrilmiş bir məkandır.

***V.MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***



Azərbaycan.- 2023.- 10 dekabr, № 270.- S.15.